# Liderinə inam Azərbaycan dövlətinin və xalqının gücüdür



*"Bu gün Azərbaycan xalqı bir yumruq kimi birləşib. Bizi birləşdirən ümummilli məsələ Qarabağın azad edilməsi idi. Bu məsələ artıq öz həllini tapdı və bu birlik daimi olmalıdır". Bu fikirləri Prezident İlham Əliyev Milli Məclisdə andiçmə mərasimindəki çıxışında bildirib. Dövlət başçısı qeyd edib ki, mövcud milli birlik daimi olmalıdır. Çünki Azərbaycanın dünyada və regionda önəmi artır. Təbii ki, milli birliyin iqtisadi və siyasi əsasları var. Bu əsası doğuran səbəb isə milli dəyərlərdir. Əgər bu gün bir xalq kimi hansısa uğura nail oluruqsa, bunun təməlində dəyərlərimiz dayanır. Elə bir gənc nəsil yetişdirməliyik ki, onlar da daim bizim kimi milli ənənələrə, milli-mənəvi dəyərlərə sadiq olsunlar.*

Hərtərəfli inkişaf üçün ölkədə birliyin və sabitliyin rolu inkaredilməzdir. Bu baxımdan, Azərbaycanda sabitlik təmin edilir, xalqımız təhlükəsiz şəraitdə, rifah içində yaşayır. Vətəndaş birliyi, həmrəyliyi möhkəmlənir və bütün xalq bir amal uğrunda birləşib - Azərbaycanı gücləndirmək, Azərbaycanda sabitliyi daha da möhkəmləndirmək və sosial-iqtisadi inkişafı davam etdirmək. "Əlbəttə, müstəqil siyasət aparmağımız bizə bəzi problemlər də yaradır" söyləyən cənab İlham Əliyev bildirir ki, çünki bu gün dünyada qütbləşmə göz qabağındadır. Böyük dövlətlər öz təsir dairələrini genişləndirmək yönümündə səylər göstərirlər. Bu məqamla rastlaşanda ki, dünyada müstəqil, öz sözünü deyən, heç kimdən çəkinməyən, prinsipial ölkə var, bu, təbii ki, onları qıcıqlandırır. Amma bu etiraf da diqqətə çatdırılır: "Ancaq bu bizi narahat etməməlidir. Bu məsələlərə, ümumiyyətlə, mən fikir vermirəm. Çünki mənim üçün əsas məsələ ölkəmizin təhlükəsizliyi, inkişafı və sabitliyidir. Ona görə, Azərbaycan bundan sonra da müstəqillik yolu ilə gedəcək".

Ölkəmizin bu gün hər sahədə qazandığı uğurlar, əldə etdiyi təcrübə göz önündədir. Dövlətimizin iştirakı olmadan bölgədə heç bir layihə icra edilə bilməz. Azərbaycanın yerləşdiyi coğrafi məkan, iştirakçısı və təşəbbüsçüsü olduğu layihələr dövlətlər, xalqlar arasında körpü rolunu oynayır. Ötən əsrin sonlarında respublika mürəkkəb tarixi dövr yaşasa da, sosial-iqtisadi və mədəni həyatında böyük təkamül yolunu inamla keçərək sabit, təhlükəsiz və müasir həyat səviyyəsini təmin etmiş ölkə kimi dünyada tanındı. Ölkənin beynəlxalq nüfuzu əhəmiyyətli dərəcədə artmış, cəmiyyətdə dövlətçilik ənənələri güclənmiş, müasir sosial-iqtisadi infrastruktur quruculuğu uğurla həyata keçirilmişdir. İqtisadi inkişafdan qaynaqlanan yüksək maliyyə imkanları uzun illər makroiqtisadi sabitlik və artıma mühüm töhfə vermiş, təhlükəsizliyin təmini üçün güclü potensial yaratmışdır.

Xalqımız ötən 30 illik dövr ərzində işğalla barışmadı və ərazi bütövlüyünü bərpa etmək üçün sarsılmaz əzm göstərdi. Prezident İlham Əliyevin rəhbərliyi dövründə yetişən, formalaşan vətənpərvər gənclər vətəni qorumaq üçün hər cür fədakarlığa hazır olduqlarını dönə-dönə sübut etdilər. Azərbaycan xalqının həmrəyliyi əsas uğurlarımızdan biridir. İkinci Qarabağ müharibəsindəki parlaq qələbə bir daha onu göstərdi ki, Azərbaycan xalqı yenilməzdir, məğrurdur. Keçmişini unutmayan, bu günü ilə qürur duyan və gələcəyə böyük inamla addımlayan xalq tarixin bütün sınaqlarından şərəflə çıxır. Xalqımız tarixinə sahib çıxması, torpaqlarını işğaldan azad etməsi ilə qürurludur. Birliyimiz, həmrəyliyimiz tarixi ədalətə və beynəlxalq hüquqa söykənən növbəti addımlarımızda da öz sözünü deyəcək.

Çoxşaxəli, prinsipial, dürüst xarici siyasətin yürüdülməsi, beynəlxalq təşkilatlarla və xarici dövlətlərlə fəal işin aparılması, sıx əlaqələrin qurulması, həyata keçirilən regional enerji və kommunikasiya layihələri Azərbaycanın etibarlı tərəfdaş kimi mövqeyini xeyli gücləndirdi, ölkənin nüfuzunu artırdı, bölgədə rəsmi Bakının iradəsi həlledici amilə çevrildi. Tarixi Zəfər sayəsində işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcək. Bu çərçivədə regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticarət əlaqələrinin inkişaf etməsi Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın region iqtisadiyyatının ümumi arxitekturasının müəyyən edilməsində rolunu daha da möhkəmləndirəcək.

Bu gün iqtisadi sahədə aparılan islahatlar artıq Azərbaycanda tamamilə yeni bir investisiya iqlimi yaratmışdır. Əvvəlki illərdə investisiyalar daha çox neft-qaz sahəsinə qoyulurdusa, bu gün qeyri-neft sektoruna qoyulan sərmayə milyardlarla dollar səviyyəsindədir. Respublika Cənubi Qafqazın yeganə ölkəsidir ki, zəngin karbohidrogen ehtiyatlarına, inkişaf etmiş yanacaq-energetika infrastrukturuna və özünü tam təmin edən enerji sisteminə malikdir. Ölkənin təkcə milli və regional səviyyədə deyil, həm də dünya enerji sistemində getdikcə həlledici bir vəsiləyə çevrilməsi, transmilli enerji bazarlarında özünəməxsus yer tutması və Avropanın enerji təhlükəsizliyində fəal iştirakı onun regional və planetar geosiyasi, geoiqtisadi mövqeyinin möhkəmlənməsinə xüsusi təsir göstərir.

Azərbaycanın enerji ehtiyatları həm də milli iqtisadiyyatın bütün sahələrinin dinamik inkişafının əsasını təşkil edir, ölkənin Ümumi Daxili Məhsulunun, əsas maliyyə-iqtisadi göstəricilərinin formalaşmasında həlledici amil kimi çıxış edir. Odur ki, mövcud təbii ehtiyatlardan, yanacaq-enerji potensialından səmərəli istifadə edilməsi siyasəti Cənubi Qafqazın regional geosiyasi və geoiqtisadi vəziyyəti fonunda ölkənin davamlı iqtisadi inkişafının və iqtisadi təhlükəsizliyinin əsas təminatlarından birini yaradır. Əldə edilmiş razılaşmalar, imzalanmış kontraktlar yaxın bir neçə ildə özünü elə göstərəcək, sıçrayış elə böyük olacaq ki, bunu hər kəs görəcək. Qarabağ və Şərqi Zəngəzur iqtisadi inkişafın yeni bir dayaq nöqtəsi olacaq. O bölgələrdə həm kənd təsərrüfatı, həm bərpaolunan enerji ilə bağlı layihələr, turizm layihələri qeyri-neft sektoruna böyük dəstək verəcək. Sosial sahədə vacib məsələlərdən biri şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsidir. Bu kateqoriyadan olan insanlara dövlət tərəfindən 14 min 800 fərdi ev və ya mənzil verilmişdir. Bu kateqoriyadan olan insanların 100 faiz evlə təmin edilməsi prosesi sürətlə gedir, o cümlədən bu il və gələn il bu işlər görüləcək

Uğurlu sosial-iqtisadi və siyasi nailiyyətlər, milli və multikultural dəyərlər qarşıdakı illərdə Şərqlə Qərbin qovşağı olan Azərbaycanın qüdrətinin daha da artacağına əminlik yaradır. Bu imkanlar 2030-cu ilə qədər olan mərhələdə Azərbaycanın iqtisadi suverenliyinin möhkəmləndirilməsinə və müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinə malik qüdrətli dövlətə çevrilməsinə zəmanət verir. Bu gün Azərbaycan dünyada nümunəvi inkişaf modelinə və milli tərəqqi yoluna malik müstəqil ölkə kimi tanınır. Ölkəmizin tarixi nailiyyətlər qazanaraq dünyada söz və nüfuz sahibinə çevrilməsi milli maraqlara, dövrün tələblərinə və çağırışlarına əsaslanan daxili və xarici siyasətin həyata keçirilməsi sayəsində mümkün olub. Müstəqillik dövrünün sabitlik və inkişaf mərhələsi kimi səciyyələndirilən ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə görülən işlər milli-strateji hədəflərə çatmağa imkan verməklə yanaşı, yeni Azərbaycanın parlaq gələcəyini inşa etdi. Həmçinin siyasi varisliyi təmin etməklə Azərbaycanın müstəqil dövlətçilik ənənəsinin qorunmasına - ölkəmizin suveren dövlət kimi davamlı inkişafına müstəsna töhfələr verib. Bu gün Azərbaycanın inamlı, dinamik və dayanıqlı inkişafı, müstəqilliyini möhkəmləndirərək yeni strateji zirvələr fəth etməsi Heydər Əliyev siyasətini yeni müstəvidə davam etdirən dünyaşöhrətli siyasətçi cənab İlham Əliyevin adı ilə bağlıdır.

Cənubi Qafqazda yeni geosiyasi vəziyyət yaradan rəsmi Bakının dünya diplomatiyasında rolu və mövqeyi getdikcə daha da möhkəmlənir. Bu gün Azərbaycan dünyanın lider ölkələri ilə əməkdaşlıq etməklə, dünya arenasında etibarlı və güclü müttəfiq kimi qəbul olunur. Eyni zamanda deyə bilərik ki, rəsmi Bakı həm də qlobal məsələlərin həllinə öz töhfələrini verməklə, dünyanı narahat edən problemlərin aradan qaldırılmasında yaxından iştirak edir, böyük güclər arasında sülh missiyasını yerinə yetirir. Tarixi əhəmiyyətli hadisələrə şahidlik etmək hər nəslə qismət olmur. Xalqımız 200 ildir üzləşdiyi davamlı torpaq itkilərindən, işğallardan, soyqırımlarından, terror və deportasiyalardan sonra ilk dəfədir ki, taleyimizi kökündən dəyişən epoxal hadisələrin içindən keçir, böyük Zəfərlərin sevincini, qürurunu yaşayır. Xüsusən də son dörd ildə baş verən proseslər və qazandığımız qələbələr müqayisəyəgəlməz dərəcədə möhtəşəmdir. Bu böyük qələbələrin memarı isə, heç şübhəsiz ki, Prezidentimiz və Müzəffər Ali Baş Komandanımız İlham Əliyevdir.

Ümumiyyətlə, Prezident İlham Əliyevin adı həm daxili, həm də beynəlxalq ictimai rəydə milli tərəqqi anlayışı ilə assosiasiya olunur. Ona görə ki, cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi illərdə Azərbaycan misilsiz tərəqqiyə nail olub, nümunəvi iqtisadi inkişaf modeli ilə dünyanın diqqətini özünə cəlb edə bilib. Heç də təsadüfi deyil ki, dünyanın nüfuzlu ekspertləri və mötəbər strateji tədqiqat mərkəzləri, aparıcı reytinq institutları respublikanın inkişaf modelini mütərəqqi nümunə kimi səciyyələndirir və ölkəmizin gələcəyinə dair pozitiv rəy, nikbin proqnoz ifadə edirlər. Milli Məclisin tribunasından çıxışında cənab Prezidentin hər bir cümləsi bizə sabaha güvən və inam hissi bəxş edirdi. Zaman və yaşadığımız hadisələr sübut edir ki, dövlətimizin başçısının siyasəti etibarlı və sarsılmazdır.

**Mustafa KAMAL,**
**"Respublika".**